**Amerika Birləşmiş Ştatlarının Səfirliyi**
Bakı şəhəri, Azərbaycan

Azadlıq Prospekti 83
AZ1007 Bakı, Azərbaycan
E-poçtu: seyidovag@state.gov

Telefon: +(994 12) 498 03 35
Faks: +(994 12) 465 66 71
URL: http://azerbaijan.usembassy.gov

# MƏTBUAT ÜÇÜN AÇIQLAMA

İllik Həcc ziyarətinin sonu münasibəti ilə bütün dünya müsəlmanlarının Qurban bayramını təbrik edirəm. Bu il Həcc ziyarətinə getmiş minlərlə amerikalı müsəlmanlar da daxil olmaqla 3 milyon müsəlmana, evlərinə qayıdarkən yaxşı yol arzulayırıq.

Həyatın müxtəlif sahələrindən olan və yer kürəsinin müxtəlif yerlərindən gələn insanların düşüncə və ibadət üçün bir yerə toplaşmağının şahıdı olmaq təkrarolunmaz bir hissdir.

Aralarındakı fərqə baxmadan bir-birini qardaş və bacı olaraq qəbul edən insanların dəyərlərini Dövlət Departamenti və həqiqətən bütün Amerika tərəfindən bölüşülür. Dövlət qulluğunda olduğum dövrdə əlimdən gələni etmişəm ki, bizim bəşəriyyəti yüksəltmək səylərimizdə burada və xaricdə olan müsəlman və digər inanc sahiblərinə bərabərhüquqlu əməkdaş kimi hörmət edilsin. Hökumət olaraq biz bu münasibətimizi davam etdirəcəyik.

Dövlət Departamenti adından bütün dünya müsəlmanlarının Qurban bayramını təbrik edirik. Qurban Bayramınız mübarək!

Hilari Klinton
ABŞ Dövlət Katibi

####